# UŞAQYÖNÜMLÜ YANAŞMANIN PRAKTİK NÜMUNƏSİNDƏ MƏKTƏBƏHAZIRLIQ QRUPU ÜÇÜN GÜNÜN I YARISININ PLANLAŞDIRILMASI

***Rəhimova Səbinə Rövşən qızı***
***Cahan k/e və uşaq bağçasının metodisti***
***Sabinarahimova74@gmail.com***

Məktəbəqədər təhsil kurikulum proqramı öyrənmə prosesinin səmərəli təşkili üçün təhsilverənlərə məzmun, strategiya, dəyərləndirməni təqdim edir. Məktəbəqədər təhsilin məzmunu – nəyi öyrənəcəyik?, təlim strategiyaları – necə öyrənəcəyik?, uşaq inkişafının dəyərləndirilməsi – hansı nəticə əldə etdiyimizi müəyyənləşdirməyə imkan yaradır. Dəyərləndirmə prosesində təhsilalanın ehtiyaclarını, potensial imkanlarını, inkişaf tempini doğru müəyyən etmək strategiyanın düzgün qurulması üçün ən vacib amillərdəndir. Hətta deyərdim ki, dəyərləndirmə məzmun və strategiyanın müəyyənləşdirilməsində sanki mayak rolunu oynayır.

**Strategiya nədir?**

**- Strategiya** əvvəlcədən müəyyən edilmiş nəticəyə (nəticələrə) çatmaq üçün hazırlanan məqsədlər zənciri, subyektin məqsədinə çatması üçün düşünülmüş planlı fəaliyyət modelidir. Strategiya minimal əmək, vaxt və resurs sərf etməklə optimal nəticəyə necə çatmağın yollarını göstərir. Strategiyanın məzmununa fəaliyyət istiqamətinə uyğun olaraq məntiqi qərarlar toplusu daxildir.

Məktəbəqədər təhsilin proqramında (kurikulumda) təlim strategiyaları aşağıdakı məsələləri əhatə edir:

Səbinə Rəhimova

- təlim prosesi və onun təşkili prinsipləri;

- təlimin təşkilində istifadə olunan forma və üsullar;

- təlimin planlaşdırılması.

Təqdim olunan nümunə əsasən uşaqyönümlü yanaşmanın praktik nümunəsində məktəbəhazırlıq qrupu üçün günün I yarısının planlaşdırılmasını əhatə edir. Planlaşdırma təlim strategiyalarının bir hissəsidir. Təlim prosesinin planlaşdırılması tədris fəaliyyətinin səmərəli, məqsədəuyğun və ardıcıl şəkildə həyata keçirilməsini təmin edən mühüm hazırlıq mərhələsidir. Bu proses tərbiyəçi-müəllimin tədrisin uğurlu keçməsi üçün bir növ "yol xəritəsi"dir. Planlaşdırma zamanı təlimin məqsədlərinin müəyyən edilməsi, iştirakçıların ehtiyaclarının öyrənilməsi, metod, üsul və iş formalarının seçilməsi, eləcə də resurs və materialların hazırlanması və s. bu kimi vacib elementlər nəzərə alınır. Bununla yanaşı, zamanın düzgün təşkil edilməsi, dəyərləndirmə metodlarının dəqiqliklə seçilməsi və geribildirim əsasında inkişafın təhlili planlaşdırmanın ayrılmaz hissələrindəndir. Təlim prosesinin məqsədli şəkildə planlaşdırılması həm təhsilverənin effektivliyini artırır, həm də iştirakçıların öyrənmə nəticələrinə nail olmasına töhfə verir.

**Uşaqyönümlü yanaşmanın praktik nümunəsində məktəbəhazırlıq qrupu üçün günün I yarısının planlaşdırılması** (Təqdim olunan planı öz qrupunuzdakı uşaqların tələb və ehtiyaclarına uyğunlaşdırıb istifadə edə bilərsiniz). Uşaqlara dair nəzərdə tutulan bacarıqların inkişafına nail olmaq üçün, fəaliyyətlər onların tələb və ehtiyaclarına uyğun olaraq öncədən planlaşdırılır. Bu səbəbdən tərbiyəçi-müəllimin ilk işi uşaqların tələb və ehtiyaclarını müəyyənləşdirmək və hər bir uşağını görə bilən, onu təmin edən (uşaqyönümlü, inkişafyönümlü, şəxsiyyətyönümlü, inteqrativ

və s.) cari planını hazırlamaqdır. Planlaşdırmada sadədən mürəkkəbə prinsipi gözlənilməlidir. Məqsədlər qrupdakı uşaqların bacarıqları, potensial imkanları nəzərə alınaraq müəyyən edilir. Planlaşdırmada uşaqların iştirakını təmin etmək uşaqyönümlülük prinsipinə qulluq edir.

Nitqin inkişafı istiqamətində işi biz gün ərzində bütün fəaliyyətlərdə - müsahibə, müşahidə, fərdi yanaşma, oyunlar, gəzintilər, tədbirlər, məşğələlər, yemək, hətta geyinib-soyunma, şəxsi gigiyena qaydalarına əməl edən zamanı da aparırıq.

Aşağıda planlaşdırmaya dair nümunə əlavə olunmuşdur:

**<u>Planlaşdırma nümunəsi:</u>**

**Salamlaşma: 8-10 dəqiqə**

Tərbiyəçi-müəllim dairəni qurur və salamlaşma ilə günün mövzusuna giriş edir.



- Hər birimiz solumuzdakı dostumuzla salamlaşıb, onda ən çox xoşladığımız xüsusiyyəti ona söyləyirik. **(Salamlaşma zamanı əhval-ruhiyyəni qaldırma, fəallaşdırma, günün mövzusu ilə əlaqələndirmə)**

**Hava müşahidəsi: Hava müşahidəsi bütün qrup uşaqları tərəfindən aparılır, lakin cədvələ növbətçi qeyd edir. Vaxt: 5-8 dəqiqə**

| gün / Hafta | I | II | III | IV | V | IV | VII |
|---|---|---|---|---|---|---|---|
| I | | | | | | | |
| II | | | | | | | |
| III | | | | | | | |
| IV | | | | | | | |





**<u>Fəaliyyətin adı: Müsahibə.</u> Vaxt: 10 - 20 dəqiqə**

***İzah:*** *Müsahibə zamanı aktiv dinləmədə olmağı və uşağı "nə üçün belə düşünürsən?" kimi suallarla fikrini əsaslandırmağa istiqamətləndirmək effektivdir. Dəstəkləyici təhlükəsiz mühiti doğru təşkil etmək vacibdir. Bunun üçün zəncirvari olaraq bir-birini tələb edən didaktik prinsiplərin bütün aspektlərinə diqqət yetirmək lazımdır. Müsahibə zamanı yalnız tərbiyəçi-müəllimin uşağı dinləməsini deyil, eyni zamanda uşaqların bir-birini və tərbiyəçi-müəllimi*

*dinləməsi təmin olunmalıdır. O zaman uşaq dinləmə mədəniyyətinə yiyələnir. Uşağın yorulmaması, maraqla dinləməsi üçün ünsiyyət bacarıqlarımızdan və müxtəlif cəlbetmə fəndlərindən istifadə edə bilərik.*

**Standart:** 2.2.6. Nitqində əlamət, keyfiyyət, hiss bildirən, əks və eyni mənalı sözlərdən (şeir, hekayə və nağılın məzmununa uyğun və s.) istifadə edir; 4.2.1. Digərlərinin hərəkətlərini, arzu və istəklərini dəyərləndirir.

**Mövzu:** "Kiminlə vaxt keçirtməyi daha çox sevirsən?"

**Məqsəd:**

- ✓ Öz hisslərini (sevinc, kədər, maraq, darıxma və s.) tanıyır və adlandırır.
- ✓ Özünüifadə zamanı hiss bildirən, əks və eynimənalı sözlərdən (sevinc, kədər, güvən, qorxu və s.) istifadə edir.
- ✓ Həmyaşıdlarını dinləyərkən özünüifadə müxtəlifliyinə hörmətlə yanaşır, arzu və istəklərini dəyərləndirir.

**<u>Fərdi yanaşma:</u>** Nitqin inkişafı üzrə iş: Əli[*], Leyla ilə "r" səsinin düzgün tələffüzü üzrə iş. (5-8 dəqiqə)

Məqsəd: "r" səsini düzgün tələffüz edir.

Dənizlə sözləri tam tələffüz etməsi üzrə iş.

Səbinə Rəhimova

Məqsəd: Dəniz tələsmədən, sözləri tam söyləyərək aydın danışır.

**<u>Təcrübəmə əsaslanan qeyd:</u>** Fərdi yanaşma səhər uşaqlar gəlincə, digər uşaqlar sərbəst fəaliyyətdə olduqda və ya didaktik oyun zamanı məqsədli fərdi yanaşmaq, eləcə də günün ikinci yarısı aparıla bilər. Bu planlaşdırmada ehtiyaca görə Əli və Leylaya 5 dəqiqə ayrıldı. Əyləncəli, məqsədli oyun vasitəsi ilə həyata keçirildi. Sonra Əli və Leyla da sərbəst fəaliyyətdə oldular. Dəniz səhər tez gəldiyi üçün öncədən fərdi iş aparıldı.

Fəaliyyətlərin sonunda uşaqlara növbətçilərlə birlikdə vəsaitləri yerinə qoymağı tapşırırıq.

**<u>Fəaliyyətin adı: Oyun.</u>** "Sözü tap" didaktik oyunu. **<u>Vaxt: 15-20 dəqiqə</u>**

***İzah:*** *5-6 yaşlı uşaqların oyun fəaliyyət növü üzrə inkişafı üçün aşağıdakılara diqqət etmək zəruridir: - hadisələrin fərqləndirilməsi, oyundan zövq alınması; - marağın davamlılığı baxımından uzunmüddətli rollu oyunlar (həmçinin pazl oyunları, didaktik oyunlar və s.) üçün şəraitin yaradılması (Kurikulum 2022).*

*Oyunu planlaşdırarkən uşaqların fikrini nəzərə almaq və planlaşdırmada onların iştirakını təmin etmək didaktik prinsiplər tələbinə uyğundur. Oyun qaydaları və təlimat aydın şəkildə uşaqlara izah olunur. İlk dəfə oynanılırsa, tərbiyəçi-müəllimlə birlikdə oyun qaydaları açıqlanır və ya tərtib olunur, təlimat aydın şəkildə uşaqlara izah olunur. Növbəti dəfələrdə isə məktəbəhazırlıq qrupunun uşaqları bunu sərbəst edə bilərlər. Təqdim edilən oyun digər yaş qruplarına uyğunlaşdırılıb istifadə oluna bilər.*

---

[*] Məqalədə istifadə olunan bütün şəxs adları şərtidir.

**Standart:** 4.2.3. Müxtəlif situasiyalarda məsələnin həllini axtararkən özünəinam və müstəqillik nümayiş etdirir. 4.1.2. Birgəfəaliyyət planlaşdırarkən tərəfdaşlarının maraq və fikirlərini nəzərə alaraq, onların emosional vəziyyətinə diqqət nümayiş etdirir.

İnteqrasiya: 2.2.4. Hərf və səsləri (səs təhlili üzrə iş, kəsmə əlifba vasitəsilə sözlərin düzülüb, oxunması) fərqləndirir.

**Məqsəd:**

- ✓ Oyun tapşırıqlarını yerinə yetirərkən müstəqil təkliflər irəli sürür və sərbəst şəkildə fikirlərini əsaslandıraraq özünəinam nümayiş etdirir.
- ✓ Qrup üzvlərinin fikir və maraqlarını nəzərə alır və diqqət nümayiş etdirir.
- ✓ Şəkildəki obyektlərin adlarını səsləndirir və hərfin yerini müəyyənləşdirir.

**Oyuna dair təlimat:** Uşaqlar öz seçimlərinə görə qrupa bölünürlər və qrupları adlandırırlar. Tərbiyəçi-müəllimin xüsusi təqdimatı ilə sevimli qəhrəmanımızın göndərdiyi qutu açılır. Qutuda şəkilli kartlar, oyun blankı və məktub var. Kartların üzərində adlar (Dünya, Orxan, Sadiq və Toplan), arxa tərəfində isə oyun tapşırığı qeyd olunub. Məktubda bildirilir ki, kartlarınız əsasında oyun blankındakı sözü tapmaqla gözəl bir hekayəyə keçid bileti qazanacaqsınız.

Bunun üçün: hər qrupdan bir nəfər kart seçir.

- ➢ Kartdakı qəhrəmanın adını oxuyun və birinci hərfini xanaya qeyd edin (kəsmə əlifbadan, hərfin şəklini çəkməklə və ya özünüz düşündüyünüz vasitədən istifadə edə bilərsiniz. Qrupun səviyyəsindən və vaxtdan asılı olaraq tapşırığı "adın hərflərini bütünlüklə xanalara daxil edin" kimi mürəkkəbləşdirə bilərsiniz).
- ➢ İşi tamamladıqdan sonra kartları, lövhədə asılmış oyun blankında doğru yerini tapıb yerləşdirin (Uşaqlar özləri düşünməli və kartdakı fiqura uyğun yerə yerləşdirməlidirlər).
- ➢ Adların birinci hərflərindən alınan sözü oyun blankındakı xanalara yerləşdirin. Sözü səsləndirin.








Səbinə Rəhimova




***İzah:*** *Addımlar tərbiyəçi-müəllim tərəfindən mərhələlərlə səsləndirilir. Növbətçilər vəsait paylamaqda, yığmaqda kömək edirlər. Bacarıqlar vurğulanır və uşaqlar rəğbətləndirici sözlərlə mükafatlandırılırlar. Proses zamanı bütün uşaqların aktiv iştirakını diqqətdə saxlamaq əsas vəzifələrdən biridir. Lövhədə asılan oyun blankı növbəti fəaliyyət üçün saxlanılır. Qazanılan biletlər paylanır. Uşaqlar maraqla növbəti fəaliyyətin bu sözlə əlaqəsini izləməyə səbirsizlənirlər. Bu oyunda ilkin kodlaşma bacarıqları da formalaşır.*

**<u>Fəaliyyətin adı:</u> Məşğələ:** Bədii təfəkkürün inkişafı. **Vaxt: 30 dəqiqə**

*Bədii təfəkkürün inkişafı məşğələsinin xüsusiyyətləri*

***<u>Qeyd:</u> 5-6 yaşlı uşaqların <u>bədii-yaradıcı fəaliyyəti üçün aşağıdakı işlərin aparılması zəruridir:</u>***
- bədii mədəniyyət və estetik şüurun əsaslarının formalaşdırılması;
- ümumi və xüsusi bədii bacarıqların inkişafı, fərqləndirmə və müqayisə xüsusiyyətlərinin ümumiləşdirilməsi, obrazın halına acıma əsasında fərqli qavranılmanın dəstəklənməsi;
- müxtəlif bədii fəaliyyət prosesində müstəqillik və özünənəzarətin yardımı ilə bədii obrazın modelləşdirilməsi şəraitində subyektiv mövqeyin və özünüifadənin dəstəklənməsi;
- bədii fəaliyyətə hissi mədəniyyətin və yaradıcılıq münasibətlərinin aşılanması (Kurikulum 2022).

Məşğələnin bütün mərhələləri didaktik prinsiplər əsasında planlaşdırılır. Məşğələ üç mərhələdə aparılır - **Aktuallaşdırma və ya motivasiya, dərketmə, tətbiqetmə.** Təlim prosesinin mərkəzində uşaq durur.

**<u>Standart:</u>** 2.2.1. Dinləyib-anladığı fikirləri şərh edir.

2.2.2. Bədii nümunə, müşahidə, şəkillər əsasında fikrini sadə şəkildə şərh edir.

***<u>Qeyd:</u>*** *2.2.1 və 2.2.2 altstandartlarında nəzərdə tutulmuş bacarıqları inkişaf etdirmək məqsədindən yayınmamaq üçün iki təlim nəticəsini (altstandartı) əsas götürmüşəm, digərlərindən isə inteqrasiya edilmiş şəkildə istifadə etmişəm. İnteqrasiyada verdiyim 2.2.6 altstandartındakı bacarıqları öncəki məşğələdə və səhər müsahibədə əsas təlim məqsədi kimi reallaşdırmışdım. Bu məşğələdə bədii nümunədəki qəhrəmanlar haqqında fikir bildirərkən keyfiyyət və hiss bildirən sözlərdən istifadə etsinlər, uşaqların söz bazalarında möhkəmlənsin deyə köməkçi altstandart olaraq (inteqrasiyada) istifadə etdim. Məqsədlər qrupdakı uşaqların ehtiyaclarına görə sadələşdirilə və ya mürəkkəbləşdirilə bilər.*

**<u>Mövzu:</u>** Nümunəvi dost

**<u>Məqsəd:</u>**

- ✓ "Nümunəvi dost" hekayəsinin məzmununa dair suallara cavab verərək dinləyib-anladığını nümayiş etdirir.
- ✓ Hekayənin müəyyən hissəsini əks etdirən görüntüyə əsasən fikrini sadə şəkildə şərh edir.
- ✓ Hekayədəki qəhrəmanların hərəkətlərini dəyərləndirir, öz həyatından nümunələr təqdim edir.
- ✓ Hekayənin məzmununa, qəhrəmanlara dair keyfiyyət (cəsarətli, qayğıkeş, mehriban, sadiq və s.) və hiss bildirən (sevgi, sevinc, qorxu, kədər, maraq və s.) sözlərdən istifadə edərək münasibət bildirir.

**<u>İnteqrasiya:</u>** 2.2.6. Nitqində əlamət, keyfiyyət, hiss bildirən, əks və eynimənalı sözlərdən (şeir, hekayə və nağılın məzmununa uyğun və s.) istifadə edir; 4.2.1. Digərlərinin hərəkətlərini, arzu və istəklərini dəyərləndirir.

**<u>İş forması:</u>** kollektiv, qrup, fərdi.

**Üsullar:** nağıletmə, müzakirə, suallar.

**Resurslar:** qrup işləri üçün iş vərəqləri, şəkillər.

***Qeyd:*** *Tərbiyəçi-müəllim standartı reallaşdırmaq üçün ondan məqsədlər çıxarır və məqsədə nail olmaq üçün tapşırıqlar, suallar və s. hazırlayır. Təlimin məqsədi qrupdakı uşaqların potensial imkanları, maraqları, mühit, hazır olan və hazırlana biləcək resurslar nəzərə alınaraq konkret yazılmalıdır. Bütün proses təlim məqsədinə çatmağa hədəflənir. Təlim üçün hazırlanan nümayişetdirici və paylayıcı vəsaitlər, seçilmiş iş üsulları və formaları və s. məqsədə qulluq etməlidir. Məqsədlər aydın, konkret olduqda uşaqların inkişafını izləmək rahat olur. Tərbiyəçi-müəllim məqsəddə uşaqların fəaliyyətini addım-addım göstərməklə onların inkişaf dinamikasını müəyyən etməyə nail olacaq.*

*Məşğələnin birinci mərhələsi uşaqları yeni məlumatı qəbul etməyə hazırlayır. Onları dinləməyə, məzmuna, qəhrəmanlara münasibət bildirməyə, müzakirə, təhlil etməyə, tətqiqat aparmağa sövq etmək üçün səmərəli təşkil edilməlidir. Aktuallaşdırma və ya motivasiyanı məqsədəuyğun qurmaq vacibdir.*

***Aktuallaşdırma və ya motivasiya***

Aktuallaşdırma - mövcud biliklərin aşkara çıxarılıb səsləndirilməsi ilə başlayır.

Motivasiyanı necə qurmaq lazımdır?

• Diqqəti cəlb etmək və uşağı maraqlandırmaq.

• Müxtəlif fərziyyələrə səbəb olan vəziyyət yaratmaq.

• Müstəqil tədqiqata həvəsləndirmək.

• Məktəbəqədər yaşlı uşağın imkanlarına müvafiqliyi nəzərə almaq.

Səbinə Rəhimova

• Uşağı öz bacarığını həyata keçirməyə sövq etmək.

**Oyundan qazanılan bileti təqdim edib hekayə dinləmək üçün yerini tutur.**

Bu məşğələ aktuallaşdırma ilə başlayır.

- **I mərhələ - Aktuallaşdırma:**

***Qeyd:*** *Bu mərhələyə, nümunəvi dost anlayışını dərk etmələri üçün öz həyatlarından nümunə gətirməyə şərait yaratmaqla başlamaq məqsədəuyğundur. Hekayənin adını dərk etmələri hekayəni də dinləyib anlamalarına yol açır.*




Oyunun sonunda alınan sözü gəlin bir daha oxuyaq. Dost... Dost nə deməkdir?

- ......
- Dost necə olmalıdır?
- ....

Uşaqlardan alınan fikirləri daha dəqiq ifadələrlə vurğulayırıq. Məsələn:

- mənim dostum mənə məşğələdə kömək edir, yıxılanda tez yanıma gəlir...
- Afərin ona. Deməli sənin dostun qayğıkeş dostdur.
- Mənim dostum heç qorxmur.
- Demək necə dostdur?

- Cəsarətli dostdur. – Bu kimi yeni sözlər lüğət bazasına daxil olsun deyə daha çox işlənməsinə şərait yaradırıq.

Cavablara uyğun qrupların adlarını müəyyənləşdiririk (Sadiq dostlar, Cəsarətli dostlar, Nümunəvi dostlar, Şən dostlar və s.). 4 qrupun adını yazıb masalarda yerləşdiririk.

- Siz özünüzü necə dost sayırsınız? Uşaqlar, kim özünü sadiq dost kimi görürsə birinci, kim cəsarətli dost kimi görürsə ikinci, kim şən dost kimi görürsə üçüncü, kim nümunəvi dost kimi görürsə dördüncü masaya əyləşsin. Hər masada ən çox 5, ən az 3 uşaq oturmalıdır. (əgər bir masanı çox uşaq seçərsə, o adı iki masa edərək Sadiq dostlar 1, Sadiq dostlar 2 kimi yerləşdirmək olar. Əsas uşaqların seçimidir)
- Siz heç dostunuza nümunə oldunuzmu? Nümunə, örnək...
- ...
- Bəs siz dostunuzdan yaxşı nə öyrəndiniz?
- ....
- Elə isə gəlin görək bizim hekayəmizdə qəhrəmanlar necə dostdurlar? Bir-birilərinə necə nümunə ola bilirlər?
- Bəli dostlar, bugünkü hekayəmiz də "Nümunəvi dost" adlanır.

➢ **<u>II mərhələ - Dərketmə</u>**

**Qeyd:** Dərketmə - yeni bilik və bacarıqların tədqiq edilərək fəal şəkildə öyrənilməsi, tapşırıqları həlletmə prosesində məlumatların, faktların axtarılması və toplanmasıdır. Dərketmə bilik və bacarıqların vəhdətdə formalaşması prosesidir. Verilmiş işi yerinə yetirmək üçün uşaqlar iş formasından asılı olaraq fikir mübadiləsi əsasında tədqiqat aparır, ümumi nəticəyə gəlirlər (Kurikulum 2022).

Səbinə Kərimova

Bu mərhələdə hekayəni oxuyaraq nağıletmə üsulunun tələblərinə əməl edirəm. Belə ki, təlim məqsədinə uyğun olaraq diqqət yetirilməli hissələrdə aydınlaşdırıcı, istiqamətləndirici suallarla uşaqların dinləyib-anlamaları üçün imkanlar yaradıram. Sonda hekayədəki qəhrəmanların hərəkətlərini dəyərləndirə və öz həyatından nümunələr təqdim edə bilmələri üçün uyğun məqamlarda sual-cavab edirəm. Verilmiş şəkil əsasında fikrini sadə şəkildə şərh edə bilmələri üçün hekayədən şəkilləri göstərməklə oxuyuram. Hekayənin məzmununa, qəhrəmanlara dair keyfiyyət, hiss bildirən sözlərdən istifadə edərək münasibət bildirmələri üçün uyğun məqamda fəaliyyətə şərait yaradan suallar təqdim edirəm. Məlumatların ötürülmə prosesini verbal (suallar vermək) və vizual (uşaqların üz ifadələrini və jestlərini müşahidə etməklə) tənzimləyirəm.

<u>Nağıletmə</u> - məlumatın tərbiyəçi-müəllimdən uşağa ötürülməsi və dinləmə bacarıqlarının inkişafı üsuludur. Bu üsuldan mövzu ilə bağlı məzmunun zənginləşdirilməsi, tamamlanması məqsədilə istifadə etmək məqsədəuyğundur. Belə qısa nağıletmə 10-15 dəqiqə ərzində aparılır. Nağıletmə ilə bağlı aşağıdakı məsələlər diqqət mərkəzində saxlanılır:

- nağıletmənin məqsəd və vəzifələrini dəqiq müəyyənləşdirmək;
- nağıletmə zamanı ardıcıllığı gözləmək;
- nağıletmədə süjetli şəkillərdən istifadə etmək;
- digər əyani və texniki vasitələrdən istifadə etmək.

Tərbiyəçi-müəllim məlumatın ötürülmə prosesini verbal (suallar vermək) və vizual (uşaqların üz ifadələrini və jestlərini müşahidə etməklə) tənzimləyir (Kurikulum 2022). Hekayə oxunarkən səs tembirinə, mimika və jestlərə, intonasiyaya diqqət yetirmək vacibdir.

**Nümunəvi dost**

"Zəfər Günü" idi. Dünya ailəsi ilə şəhərə gəzməyə çıxmışdı. Hər kəs meydana doğru tələsirdi. Hamının əlində bayraq vardı. Dünya da bayraqlarını götürmüşdü. Türkiyə və Azərbaycan dövlətinin bayraqlarını başının üstündə yellədə-yellədə tələsik addımlayırdı. Qız qalasının döngəsində dostu Sadiqi və atasını gördü. Onlar da meydana tələsənə oxşayırdılar. Dünya Sadiqi səslədi: Sadiq, Sadiq, hara gedirsən? Bax, biz Zəfər Gününü qeyd etməyə gedirik. Bayraqlarıma bax hələ.... **(Sual: Uşaqlar, Dünya hara tələsirdi? Dünya kimi gördü?)**

- Salam Dünya. Salam Türkan xala, Tural dayı. – Sadiq Dünyanın valideynləri və bacısı ilə salamlaşdı. - Dünya, biz də meydana gedirik. Bilirsən orda çoxlu əsgərlər, generallar var. Mən də böyüyəndə vətənimi qoruyacağam!
- Unutdum salamlaşmağı, bağışlayın. – Dünya Sadiqin atasına üzünü tutub salamlaşdı - Salam Əli dayı, Sadiq. Bilirəm, əsgərləri və generalları görmək üçün səbirsizlənirəm. Sənin bayrağın hanı bəs? Baax Azərbaycan bayrağı iki dənədir məndə.



Dünyanın atası: - qızım birini Sadiqə vermək istəmirsən? – Dünya fikrə getdi... **(Suallar: Dünyanın hansı hərəkətini bəyəndiniz? Nəyi bəyənmədiniz? Sadiqin hansı hərəkətini bəyəndiniz? Cavablara əsasən təlim məqsədinə çatmaq üçün bu hissəyə aid ehtiyac duyduğunuz suallar verə bilərsiniz.)**

- Narahat olmayın, qarşıda satılır, demişəm bir neçə ədəd saxlasınlar, götürəcəm – deyə, Sadiqin atası səsləndi. Artıq mağazaya çatmışdılar. Sadiq də bayraqlarını götürüb sevinə-sevinə irəliləməyə davam etdi **(Sual: Dünyanın yerində olsaydınız nə edərdiniz?)**. Dünya sevimli iti görüb onunla oynamağa başladı. Sadiq irəlidə ağlayan uşaq görüb dayandı. - Ata, uşaq niyə ağlayır? – Sadiq həyəcanla soruşdu.



  - Gəl soruşaq.
  - Sən niyə ağlayırsan? - Sadiq uşağa yaxınlaşıb soruşdu.
  - Mən də bayraq istəyirəm.
  - Bax məndə iki dənədir. Sənə verə bilərəm. **(Sual: Sadiqin yerinə siz olsaydınız nə edərdiniz?)**

Dünya itlə oynayaraq dostunu müşahidə edirdi. Sadiqin bu hərəkəti onu düşündürdü. Dünya itdən ayrılıb qaça-qaça dostuna yaxınlaşdı.

- Çox sağol. Sənin adın nədir?- ağlayan uşaq Sadiqdən soruşdu.
- Sadiq.
- Mənim adım Orxandır.
- Bu da mənim dostum Dünya. O, heyvanları çox sevir.
- Orxan qalx, birlikdə gedək. Bax nə gözəldir meydan. – Dünya yeni dostunun əlindən tutub qalxmağa kömək etdi. Üç dost birlikdə meydana sarı irəliləməyə başladılar.

  Qarşıda böyük izdiham görünürdü. Onlar böyük sevinclə müşahidə edirdilər. Dünya öz bayraqlarını ordakı uşaqlara payladı. Sadiq dostları üçün həmin günü gözəl bir nümunə oldu... **(Suallar: Burada kimi qayğıkeş dost adlandıra bilərik? Əvvəl kədərli, sonra sevinən kim oldu? Hansı davranış dostlara dərs oldu?)**
- Sadiq bugün dostlarına nümunəvi dost oldu – deyə Dünyanın atası Sadiqin atasına təşəkkür etdi.
- Nümunəvi dost demək hələ tezdir, amma nümunəvi davranışlarına görə mən də Sadiqə çox sağol deyirəm.

  Hekayəmiz bitdi.

**<u>İdman dəqiqəsi</u>**

- Hekayədə nəyi bəyəndiniz?
- ....
- Hekayədə nəyi bəyənmədiniz?
- ....
- Ən çox hansı qəhrəmanı sevdiniz?
- ...
- Hansı hərəkətləri, davranışları sevmədiniz?
- ...
- Siz bu qəhrəmanın yerinə olsaydınız nə edərdiniz?
- ...
- Sizin həyatınızda belə bir hadisə baş veribmi?
- ...
- Sadiqi necə bir dost adlandırardınız?
- .

Şəhinə Rəhimova

- **<u>III mərhələ: Tətbiqetmə. Qruplarla iş</u>**

Qeyd: Tətbiqetmə - qazanılmış bilik və bacarıqların tətbiq edilməsidir. Uşaqlar əldə etdikləri bilik və bacarıqları möhkəmləndirir və bunların praktik əhəmiyyəti artır. Tətbiq etmək məqsədilə uşaqlara praktik tapşırıq verilir. Məktəbəqədər yaş dövründə əsas fəaliyyət növü oyun olduğu üçün tətbiqetmə zamanı mövzuya uyğun oyundan istifadə edilməsi məqsədəmüvafiqdir (Kurikulum, 2022). Qruplarla iş qaydaları xatırlanır. Təlimat aydın şəkildə uşaqlara izah olunur.

**Qrup tapşırıqları:** I, II, III qruplar, şəkil üzrə hekayəni danışın, orada baş verənlərə (qayğıkeş, sadiq, cəsarətli, mehriban, paylaşan, laqeyd, qəzəbli, sevincli, kədərli, mədəni və s. sözlərdən istifadə edərək) münasibətinizi bildirin. Qəhrəmanların nə hiss etdiklərini söyləyin. IV qrup, hekayədəki qəhrəmanları sadalayın, onların hərəkətlərini təhlil edin. «Dostdur», «dost deyil» yanaşması ilə qəhrəmanların xüsusiyyətlərinə (qayğıkeşlik, cəsarətli, sadiqlik, mehribanlıq, paylaşan və ya laqeydlik, qəzəbli, səbirsizlik və s.) münasibət bildirin.


*I qrup*


*II qrup*


*III qrup*



*IV qrup*

**Qruplar təqdimatlarını edirlər. Qruplar arasında fikir mübadiləsi gedir.**

***Qeyd:*** *Sonda məqsədə çatdığınızı uşaqların təqdimatında sərgilənməsi, hər bir uşağa təlimin nəticəsini özündə görməyi öyrədir. Uşaq öz inkişafının fərqində olur.*

Səbinə Rəhimova

**<u>Refleksiv sual:</u>**

- Bu hekayədən nə öyrəndin?
- Bunu necə bacardın?
- Öyrəndiyin sənə nədə kömək olacaq?
- Sənə nə çətin gəldi?
- Nə üçün çətin idi?
- Uşaqlar, hər kəs səhv edə bilər. Önəmli olan səhvləri anlamaq və yenidən etməməkdir. Siz nümunəvi dost olmaq üçün nə edəcəksiniz?
- ...
- Afərin sizə. Siz yaxşı dostun necə olmalı olduğunu artıq bilirsiniz. Bu rəngləmələr isə dinləməyi, sualverməyi, müqayisə etməyi, təhliletməyi və qazandığınız başqa bacarıqları istifadə edərək fəallıq etdiyiniz üçün sizin mükafatınızdır. Axşam fəaliyyətində istəsəniz rəngləyərsiniz və ya evə aparıb evdə rəngləyərsiniz. Həm də evdə hekayəni danışarsınız.

**Gəlin, cəhdlərimizə görə bir-birimizi alqışlayaq.**

**Məşğələnin nəticəsi. Beləliklə, bədii təfəkkürün inkişafı məşğələsinin əsas məqsədi uşaqların nitqinin inkişafı,** bədii mədəniyyət və estetik şüurun əsaslarının formalaşdırılması, ümumi və xüsusi bədii bacarıqların inkişafı, fərqləndirmə və müqayisə xüsusiyyətlərinin ümumiləşdirilməsi, obrazın halına acıma əsasında fərqli qavranılmanın dəstəklənməsi, müxtəlif bədii fəaliyyət prosesində müstəqillik və özünənəzarətin yardımı ilə bədii obrazın modelləşdirilməsi şəraitində subyektiv mövqeyin və özünüifadənin dəstəklənməsi, bədii fəaliyyətə hissi mədəniyyətin və yaradıcılıq münasibətlərinin aşılanmasıdır. Bu məşğələ

inteqrativ təlim prosesi üçün ən əlverişli məşğələdir. Bədii əsərlərin köməyi ilə dəyərlərin aşılanması, ətraf aləmin dərk edilməsi və s. istiqamətlərdə bilik və bacarıqların formalaşması, inkişafı əlverişlidir. İnteqrativ təlim prosesi qazanılan bilik, bacarıq və vərdişlərin təkrarlanmasına, möhkəmləndirilməsinə şərait yaradır.

**Fəaliyyətin adı (II məşğələ): Rəsm məşğələsi. Vaxt: 30 dəqiqə**

**Mövzu: "Bayraq"**

**Standart: 3.1.2. Təsvir prosesində fərqli rəng çalarlarından istifadə edir.**

**Məqsəd:**

1. Bayrağın elementlərini çəkir.
2. Bayrağa uyğun rəng çalarlarından istifadə edərək boya ilə rəngləyir.
3. Bayraq haqqında kiçik təqdimat edir.

**İnteqrasiya:** 2.1.1. Özü, ailəsi və vətəni haqqında (dövlət rəmzləri, milli ordu, milli qəhrəmanlar, milli sərvətlər, tarixi günlər və abidələr, milli bayramlar) kiçik təqdimatlar edir.

**İş forması:** kollektiv, fərdi.

**Üsullar:** müzakirə, suallar, söz assosiasiyası

**Resurslar:** boya, fırça, albomlar, şəkillər və s.

Səbinə Rəhimova

**I mərhələ - Aktuallaşdırma:**

"Nümunəvi dost" hekayəsindəki qəhrəmanlar bayrağımıza sevgini necə göstərirdilər? Tərbiyəçi-müəllim müxtəlif bayraqları göstərir – Bu bayraqlar haqqında nə deyə bilərsiniz? (səslənməyən fikirləri səsləndirmələri üçün təlim məqsədinə uyğun istiqamətləndirici suallar verir). Sizin üçün Azərbaycan bayrağının digər bayraqlardan fərqi nədir? Azərbaycan bayrağının əlamətlərini sadalayaq. Baxın, burada Türkiyə, Gürcüstan, Almaniya, Polşa dövlətlərinin bayraqları var və onlar rənglərinə, elementlərinə görə fərqlənirlər.

**II mərhələ -** Dərketmə

- Azərbaycan bayrağında hansı rənglər var?
- ...
- Hansı fiqura oxşadırsınız?
- ...
- Neçə hissədən ibarətdir?
- ...

**Praktiki iş**

Tərbiyəçi-müəllim Azərbaycan bayrağının təsvirini addım-addım həyata keçirərək əyani nümayiş edir.

1. Düzbucaqlının çəkilməsi (bayraq paneli) Soldan-sağa üfüqi xətti çəkərək lazımi anda əli dayandırmağı və aşağıya doğru kiçik xətt çəkib, sonra alt üfiqi xətti çəkməklə davam edirik.
2. Düzbucağı iki üfüqi seqmentlə üç bərabər hissəyə bölün.

3. Uyğun rənglərlə diqqətlə rəngləyin.
Uşaqlar tərbiyəçi-müəllimlə fəzada düzbucaqlını çəkib məşq edirlər.

**-idman dəqiqəsi- 2-3 dəqiqə**

**III mərhələ -** Tətbiqetmə

Uşaqlar vərəqdə karandaşla cızır, boya ilə rəngləyirlər.

İşləri sərgidən asılır və müzakirə, təhlil olunur.

**Refleksiv sual:**

- İşlərinizi bəyəndinizmi?
- Sizə nə çətin gəldi?
- Nə üçün çətin idi?
- Növbəti dəfə hansı bayrağı çəkmək istərdiniz?

**Qeyd:** Uşaq inkişafının izlənilməsinin aparılması üçün meyarlar təlim məqsədləri fonunda tərbiyəçi-müəllim tərəfindən müəyyənləşdirilir. Nəticədə bütün məlumatlar tərbiyəçi-müəllimin işinin planlaşdırılması üçün istifadə olunur.

Dəyərləndirmə zamanı aşağıdakı metodlardan istifadə olunur:

• müşahidə;
• müsahibə;
• şifahi sorğu;
• fəaliyyət məhsullarının təhlili;
• portfolio.

Səbinə Rəhimova

Uşaqlar təlim nailiyyətlərini müxtəlif yolla nümayiş etdirirlər. Seçilmiş vaxt, uşağın əhvali-ruhiyyəsi, verilən sualların xarakteri, məzmun ilə uşağın tanışlığı, onun təlim dilini asanlıqla başa düşməsi nəticələrə əhəmiyyətli dərəcədə təsir göstərir.




**Portfolioya əlavə edilir.**

**Dəyərləndirmə**

İnkişafın izlənilməsi cədvəl nümunəsi.

İnkişafın izlənilməsi cədvəlində ölçülər kodlarla qeyd edilib. Birinci nümunədə cədvəlin yalnız bir hissəsini İdrak inkişafının II əsas standartına aid hissəsini təqdim edilib. Məqsədlər sütununa reallaşdırdığınız təlim məqsədlərini qeyd edib dəyərləndirməni aparacaqsınız. Öyrənmə prosesi üçün müəyyən etdiyiniz təlim məqsədlərini tədris ili ərzində məqsədlər sütununa qeyd edərək nailiyyət dəyərləndirilir. Beləliklə standartda qeyd olunmuş bacarıqların inkişaf dinamikasını izləmək daha rahat olur. İnkişaf xəritəsi qarşımızda olur.

1 - sərbəst yerinə yetirir; 2 – böyüklərin köməyi ilə yerinə yetirir; 3 - yerinə yetirməyə cəhd edir.

| **Standart** | **Məşğələ, mövzu** | **Məqsədlər, meyar** | **Əli Əliyev** | **Dəniz** | **Leyla** | **Heydərova** | | | | | | | | | | | | | | | |
|---|---|---|---|---|---|---|---|---|---|---|---|---|---|---|---|---|---|---|---|---|---|
| | **2. İdrak inkişafı _ 2.2. Nitqi dinləyib anlayır, rabitəli danışır və nitq etiketlərindən istifadə edir.** | | | | | | | | | | | | | | | | | | | | |
| | | | | | | | | | | | | | | | | | | | | | |
| 2.1.1. Özü, ailəsi və vətəni haqqında (dövlət rəmzləri, milli ordu, milli qəhrəmanlar, milli sərvətlər, tarixi günlər və abidələr, milli bayramlar) kiçik təqdimatlar edir | Məşğələ: Ətraf aləmlə tanışlıq Mövzu: Mən | Özünü təqdim edir. | **1** | **2** | **1** | | | | | | | | | | | | | | | | |
| | Məşğələ: Ətraf aləmlə tanışlıq Mövzu: Mən | Özü haqqında kiçik təqdimat edir | **2** | **1** | **2** | | | | | | | | | | | | | | | | |
| | Məşğələ: Ətraf aləmlə tanışlıq Mövzu: Azərbaycan | Vətənini adlandırır və ona aid obyektlərdən göstərir. | **1** | **2** | **1** | | | | | | | | | | | | | | | | |
| | Məşğələ: Ətraf aləmlə tanışlıq Mövzu: Azərbaycan | Azərbaycan haqqında kiçik təqdimat edir | **2** | **2** | **2** | | | | | | | | | | | | | | | | |
| | | Bayraq haqqında kiçik təqdimat edir. | **2** | **1** | **1** | | | | | | | | | | | | | | | | |
| 2.2.1. Dinləyib- | Məşğələ: Bədii | “Nümunəvi dost” | **1** | **2** | **1** | | | | | | | | | | | | | | | | |

Səbinə Rəhimova

| | | | | | | | | | | | | | | | | | | | | | |
|---|---|---|---|---|---|---|---|---|---|---|---|---|---|---|---|---|---|---|---|---|---|
| anladığı fikirləri şərh edir. | təfəkkürün inkişafı. Mövzu: “Nümunəvi dost” | hekayəsinin məzmununa dair suallara cavab verərək dinləyib-anladığını nümayiş etdirir. | | | | | | | | | | | | | | | | | | | |
| | | Hekayədəki qəhrəmanları sadalayır. | **1** | **2** | **1** | | | | | | | | | | | | | | | | |
| | | “Nümunəvi dost” hekayəsindəki qəhrəmanların hərəkətlərini dəyərləndirir, öz həyatından nümunələr təqdim edir. | **2** | **1** | **1** | | | | | | | | | | | | | | | | |
| | | | | | | | | | | | | | | | | | | | | | |
| 2.2.2. Bədii nümunə, müşahidə, şəkillər əsasında fikrini sadə şəkildə şərh edir. | Məşğələ: Nitq inkişafı Mövzu: “Azərbaycan - vətənim mənim” | Məqsəd: Şəkil əsasında Azərbaycan ölkəsinin tarixi yerlərinə dair fikrini şərh edir. | **1** | **2** | **2** | | | | | | | | | | | | | | | | |
| | | Məqsəd: Şəkil əsasında Azərbaycan ölkəsinin tarixi yerlərini adlandırır | **2** | **1** | **2** | | | | | | | | | | | | | | | | |
| | | | | | | | | | | | | | | | | | | | | | |
| | Məşğələ: Bədii təfəkkürün inkişafı. Mövzu: Mövzu: “Nümunəvi dost” | Mövzu: “Nümunəvi dost” Məşğələ; B.T.İ “Nümunıvi dost” hekayəsinin müəyyən hissəsini əks etdirən | **1** | **1** | **1** | | | | | | | | | | | | | | | | |

Sabina Rəhimova

| | | | | | | | | | | | | | | | | | | | | | |
|---|---|---|---|---|---|---|---|---|---|---|---|---|---|---|---|---|---|---|---|---|---|
| | | görüntüyə əsasən fikrini sadə şəkildə şərh edir. | | | | | | | | | | | | | | | | | | | |
| | | | | | | | | | | | | | | | | | | | | | |
| 2.2.3. Nitq etiketlərindən (“buyurun”, “xahiş edirəm”, “xoş gəlmisiniz”, “yaxşı yol”) jest və mimikalardan istifadə edir. | Məşğələ: Savad təlimi və nitq inkişafı Mövzu: “Sehirli sözlər” | Nitqində “buyurun, xahiş edirəm, təşəkkür edirəm kimi nitq etiketlərindən istifadə edir. | **1** | **1** | **1** | | | | | | | | | | | | | | | | |
| | | | | | | | | | | | | | | | | | | | | | |
| | | | | | | | | | | | | | | | | | | | | | |
| 2.2.4. Hərf və səsləri (səs təhlili üzrə iş, kəsmə əlifba vasitəsilə sözlərin düzülüb, oxunması) fərqləndirir. | Məşğələ: Savad təlimi və nitq inkişafı Mövzu: “Hərf və səslər” | Hərf və səsləri fərqləndirir | **1** | **1** | **1** | | | | | | | | | | | | | | | | |
| | Məşğələ: Savad təlimi və nitq inkişafı Mövzu: “A hərfi və səsi” | “A” hərfini tanıyır | **1** | **1** | **1** | | | | | | | | | | | | | | | | |
| | Məşğələ: Mövzu: | | | | | | | | | | | | | | | | | | | | |
| 2.2.5. Verilən səs üzrə sözləri seçir, səslərdən hecalar, hecalardan sözlər, sözlərdən cümlələr, cümlələrdən şifahi | Məşğələ: Savad təlimi Mövzu: “A” səsi əvvəldə, ortada, sonda | “A” səsi ilə başlayan sözləri seçir. | **1** | **1** | **1** | | | | | | | | | | | | | | | | |
| | | Sözdə “A” səsi və hətfin yerini müəyyənləşdirir | **1** | **1** | **1** | | | | | | | | | | | | | | | | |

Səbinə Rəhimova

| | | | | | | | | | | | | | | | | | | | | | |
|---|---|---|---|---|---|---|---|---|---|---|---|---|---|---|---|---|---|---|---|---|---|
| mətnlər qurur. | Məşğələ: Savad təlimi Mövzu: “A, B, T, Ə, N” səslərinin dostluğu | “A, B, T, Ə, N” səslərindən hecalar qurur. | **1** | **1** | **1** | | | | | | | | | | | | | | | | |
| | : | “A, B, T, Ə, N” səslərindən hecalar, hecalardan sözlər qurur. | **1** | **2** | **2** | | | | | | | | | | | | | | | | |
| | | | | | | | | | | | | | | | | | | | | | |
| 2.2.6. Nitqində əlamət, keyfiyyət, hiss bildirən, əks və eynimənalı sözlərdən (şeir, hekayə və nağılın məzmununa uyğun və s.) istifadə edir; | Məşğələ: Ətraf aləmlə tanışlıq Mövzu: Emosiyalar | Emosiyalar haqqında danışanda nitqində hiss bildirən sözlərdən istifadə edir. | **2** | **2** | **2** | | | | | | | | | | | | | | | | |
| | Məşğələ: Bədii təfəkkürün inkişafı Mövzu: “Dostluq” şeiri | Dostları haqqında danışanda keyfiyyət(cəsarətli, qayğıkeş, mehriban, sadiq və s.) sözlərdən istifadə edərək münasibət bildirir. | **2** | **2** | **2** | | | | | | | | | | | | | | | | |
| | | Dostları haqqında danışanda hiss bildirən (sevgi, sevinc, qorxu, kədər, maraq və s.) sözlərdən istifadə edərək münasibət bildirir. | **2** | **2** | **2** | | | | | | | | | | | | | | | | |
| | Məşğələ; Bədii təfəkkürün | Hekayənin məzmununa, qəhrəmanlara | **1** | **1** | **1** | | | | | | | | | | | | | | | | |

Sabinə Rəhimova

| | | | | | | | | | | | | | | | | | | | | | |
|---|---|---|---|---|---|---|---|---|---|---|---|---|---|---|---|---|---|---|---|---|---|
| | inkişafı.<br>Mövzu:<br>“Nümunəvi dost | dair keyfiyyət (cəsarətli, qayğıkeş, mehriban, sadiq və s.) sözlərdən istifadə edərək münasibət bildirir. | | | | | | | | | | | | | | | | | | | |
| | | Hekayənin məzmununa, qəhrəmanlara dair hiss bildirən (sevgi, sevinc, qorxu, kədər, maraq və s.) sözlərdən istifadə edərək münasibət bildirir. | **1** | **2** | **2** | | | | | | | | | | | | | | | | |
| | | | | | | | | | | | | | | | | | | | | | |

Səbinə Rəhimova

| | | | | | | | | | | | | | | | | | | | | | |
|---|---|---|---|---|---|---|---|---|---|---|---|---|---|---|---|---|---|---|---|---|---|
| 3.1.1. Niyyət və süjet üzrə sadə kompozisiyalar (rəsmetmənin müxtəlif üsullarından istifadə edir, savad təliminə hazırlıq üçün zəruri olan elementar qrafik bacarıqlardan istifadə edir) qurur. | | | | | | | | | | | | | | | | | | | | | |
| | Məşğələ:<br>Rəsm<br>Mövzu:<br>Fiqurlar-Dördbucaq | Fiqurlar: Dördbucaqların əlamətlərinə diqqət edərək çəkir. | **1** | **1** | **2** | | | | | | | | | | | | | | | | |
| | Məşğələ:<br>Rəsm<br>Mövzu:<br>Bayraq | 1. Bayrağın elementlərini çəkir. | **2** | **2** | **2** | | | | | | | | | | | | | | | | |
| **3.1.2. Təsvir prosesində fərqli rəng çalarlarından istifadə edir.** | Məşğələ:<br>Rəsm<br>Mövzu:<br>Fiqurlar-Dördbucaq | Fiqurlar: Dördbucaqların əlamətlərinə diqqət edərək kənara çıxmadan fərqli rəng çalarlarından istifadə edərək rəngləyir. | **2** | **2** | **2** | | | | | | | | | | | | | | | | |
| | Məşğələ:<br>Rəsm | Bayrağa uyğun rəng çalarlarından | **1** | **1** | **1** | | | | | | | | | | | | | | | | |

| | | | | | | | | | | | | | | | | | | | | | |
|---|---|---|---|---|---|---|---|---|---|---|---|---|---|---|---|---|---|---|---|---|---|
| | Mövzu:<br>Bayraq | istifadə edərək<br>boya ilə rəngləyir. | | | | | | | | | | | | | | | | | | | |
| | | | | | | | | | | | | | | | | | | | | | |

- **Fəaliyyətin adı: Gündüz gəzintisi. Vaxt: 60 - 70 dəqiqə**
  - **<u>Müşahidə;</u>** St.2.1.6. Səma cisimləri və iqlim xüsusiyyətlərində (soyuq bölgələrdə uzun və soyuq qış; qısa və sərin yay, isti bölgələrdə qışın olmaması, isti yay, orta zolaqda çox soyuq olmayan qış və çox isti olmayan yay, həmin iqlimə uyğun heyvan və bitkiləri fərqləndirmək), gündəlik havada, ilin fəsillərində, bir neçə gün/gecə, həftə ərzində olan dəyişikliklərdə fərqli və oxşar cəhətləri, səbəb-nəticə əlaqələrini izah edir.

**<u>Mövzu:</u>** Təbiətdəki dostlarımız - ağaclarda baş verən dəyişikliklər.

**<u>Məqsəd:</u>**

- ✓ Yaz fəslində ağaclarda baş verən dəyişikliklərin fərqində olduğunu nümayiş edir.
- ✓ Dəyişikliklərin səbəb-nəticə əlaqələrini izah edir.

- **<u>Açıq havada hərəkətli oyuna hazırlıq məqsədi ilə kiçik hərəkətli oyun;</u>**

<u>Mövzu:</u> "Külək, yağış, ildırım, günəş" oyunu. Hərəkətli rollu oyunu

Yaş qrupu: 5 yaş
**Məqsəd:** Təbii hadisələri bədən dili, şeir və improvizasiya ilə ifadə edir.
**Təhlükəsizlik:** yumşaq zəmin, sərhəd xətləri, məsafələr, ətrafın kəsici, deşici və s. əşyalardan təmizlənməsi.
**Differensiasiya nümunəsi:** Sürəti tənzimləmək, inkanlara görə yerləşmə.

- **Açıq havada hərəkətli oyun**. St. 1.1.3. Topu yerə vuraraq irəliləyir, topu hədəfə atır. 4.2.2. Fəaliyyətini qrupun qaydalarına uyğun tənzimləyir.

**<u>Mövzu:</u>** Topu səbətə at

**<u>Məqsəd:</u>**

- ✓ Topu yerə vuraraq irəliləyir.
- ✓ Topu sarı topları yaxın məsafədən səbətə atır.
- ✓ Topu qırmızı topları uzaq məsafədən səbətə atır.
- ✓ Oyun zamanı fəaliyyətini qaydalara uyğun tənzimləyir.

**Təhlükəsizlik:** qaydaların yada salınması, sürüşkən səthlər, sərhəd xətləri, ara məsafələr, ətrafın kəsici, deşici və s. əşyalardan təmizlənməsi.

**Differensiasiya nümunəsi:** Sürəti tənzimləmək, inkanlara görə yerləşmə, əlavə dəstək.

- **<u>Həyətyanı sahədə əmək fəaliyyəti;</u>** St. 3.2.1. Fərdi və kollektiv əməyin növləri üzrə (özünəxidmət, təbiətdə əmək, əl əməyi, təsərrüfat-məişət əməyi) müstəqil bacarıqlar nümayiş etdirir.
  <u>Mövzu:</u> Ağacların qayğıkeş dostları.
  <u>Məqsəd:</u> Əmək alətlərindən istifadə edərək ağacdibi torpaqları yumşaldaraq təbiətdə əmək fəaliyyətində müstəqil iştirak edir.

Səbinə Rəhimova

- **<u>Uşaqlarla fiziki hərəkətlər, bacarıq və vərdişlərin inkişafı ilə bağlı fərdi iş;</u>**

<u>St.</u> 1.1.2. Yerində, uzununa, müxtəlif istiqamətlərə doğru və ip üzərindən tullanır. Leyla, Əli, Zümrüd ilə uzununa tullanma hərəkətlərinin inkişafı.

<u>Məqsəd:</u> Uzununa sərbəst tullanır;

- **<u>Müstəqil oyun fəaliyyəti.</u>** St. 4.1.1. Həmyaşıdları ilə ünsiyyət zamanı həmrəylik, emosional bağlılıq, inam nümayiş etdirir.

<u>Məqsəd:</u> Müstəqil oyun zamanı həmyaşıdları ilə razılaşır, növbələşir, inam nümayiş etdirir.

**<u>Qeyd:</u>** Fəaliyyətlərarası keçidlərə diqqət etmək zəruridir. Bu keçidlər — bir fəaliyyət növündən digərinə keçərkən uşağın emosional və davranış baxımından uyğunlaşmasını təmin edir. Keçidlər — uşaqların bir fəaliyyətdən digərinə ardıcıl və sakit şəkildə keçməsini təmin edən təşkilati üsullardır.

• Fəaliyyətlər arasında əlaqə yaradır, növbəti mərhələyə keçidi idarə edir.

- Fəaliyyətlər arasında keçid üçün ritual ifadələr, mahnılar, əl işarələri istifadə edin, rəngli kartlar, saat şəkilli göstəricilər, musiqi parçaları ilə keçidləri vizuallaşdırın .

Planlaşdırma uşaqların ehtiyaclarına, potensial imkanlarına əsasən tərtib olunduğu üçün, hər tərbiyəçi-müəllim öz təhsilalanlarını nəzərə alaraq daha sadə və ya mürəkkəb tərtib edə bilər.

**İstifadə olunan ədəbiyyat:**


1. mektebeqeder_tehsil_proqrami-kurikulum.pdf (edu.gov.az)
2. Fərqanə Seyidli “Fiziki mədəniyyət məşğələsində uşaqyönümlü yanaşmanın praktik nümunəsi (məktəbəhazırlıq qrupu)”
3. Fərqanə Seyidli “Məktəbəqədər təhsil müəssisələrində çalışan tərbiyəçi-müəllimlər üçün öyrənmə prosesinin təşkili - Açıq hava oyunlarının təşkili” üzrə ixtisasartırma təlim proqramının oxu materialı.
4. Laləzar Cəfərova, Səbinə Rəhimova “Məktəbəqədər təhsil: tərbiyəçi-müəllimlər və metodistlər üçün stolüstü kitab” (2019).